***Avtandil AĞBABA***
***Filologiya elmləri doktoru***
***Sumqayıt Dövlət Universitetinin professoru***
***e-mail: avtandil.aqbaba@mail.ru***

# ÜMUMTÜRK TÖRƏYİŞ DASTANLARI HAQQINDA BƏZİ QEYDLƏR

**Xülasə**

Türk xalqlarının mifologiyasında törəyiş dastanlarının xüsusi yeri vardır. Məqalədə ümumtürk törəyiş dastanlarında ilk insanın yaranması, təbiət-insan münasibətləri, möcüzəli şəkildə dogulan uşaqların ilahi aləmlə bağlılığı məsələləri araşdırılır. Tanrının yaratdığı insanlar, Erlikin (şeytanın) insanı günaha batırması, təbiətin müxtəlif canlı və cansız varlıqlarından doğulan uşaqlar törəyiş dastanlarının əsas mövzusudur. Müəllif yaradılış və törəyiş dastanlarında mühafizə olunan bu cür mifik süjet, obraz və motivləri müqayisəli şəkildə tədqiq etmiş, ilk insanın yaranmasında iştirak edən qüvvələrin mifoloji semantikasını aydınlaşdırmışdır.

***Açar sözlər:*** *ümumtürk, mifoloji, kult, dastan, törəyiş*

***Avtandil AGBABA***

## SOME NOTES ON ALL-TURKIC DESCENT EPICS

**Summary**

Descent epics have a special place in the mythology of the Turkic peoples. The article examines the origin of the first man in all-Turkic epics, nature-human relations, the connection of miraculously born children with the divine world. The human beings created by God, Erlik's (Satan's) leading man into sin, and children born of various living and non-living beings in nature are the main themes of the epics. The author has made a comparative study of such mythical subjects, images and motives preserved in the epics of creation and descent, and clarified the mythological semantics of the forces involved in the creation of the first man.

***Keywords:*** *all-Turkic, mythological, cult, epic, descent*

***Автандил АГБАБА***

## НЕКОТОРЫЕ ЗАМЕТКИ ОБ ОБЩЕТЮРКСКИХ ПЕРВОБЫТНЫХ ДАСТАНОВ

**Резюме**

Первобытные дастаны занимают особое место в мифологии тюркских народов. В статье исследуются истоки появления первого человека в общетюрских эпосах, отношения природы и человека, а также связь рождения де-

тей с миром божества. Люди, созданные Богом, подчинение человека Эрлику (сатане) совершая грехи, и дети, рожденные от различных живых и неживых существ в природе, – основная тема первобытных дастанов.

***Ключевые слова:*** *общетюркский, мифология, культ, дастан, первобытность*

Türk xalqlarının etnik-mədəni ənənəsində ilk insanın yaranması kosmik modelin, başqa sözlə kainatın yaranmasının mühüm tərkib hissəsi kimi başa düşülür. Mifoloji düşüncədə ilk insanın əmələ gəlməsi, yaxud da qeyri-adi, möcüzəli şəkildə doğulması mifik semantikasına görə dünya xalqlarının mifologiyasında olduğu kimi, türklərdə də çeşidli şəkillərdə özünü göstərir. Ümumiyyətlə, kainatın və insanın yaranması kosmik modelin tərkib hissəsi kimi qarşılıq təşkil edir: a) kainat ilk insanın bədən üzvlərindən yaranmışdır; b) ilk insan kainatın yarandığı elementlərdən əmələ gəlmişdir. Bu baxımdan, dünyanın və insanın yaranması həm də vəhdət təşkil edir. Dünyada ekoloji tarazılıq pozulanda, təbiətin nizamına ciddi müdaxilələr ediləndə insanların və digər canlıların kütləvi şəkildə məhv olması bu vəhdətin müəyyən təbii qanunauyğunluqlar əsasında formalaşdığını nümayış etdirir. Problemə bu aspektdən yanaşdıqda türklərin mifoloji düşüncə sistemində ilk insanın yaranması, yaxud da möcüzəli şəkildə doğulan uşaqlar haqqında bir sıra törəyiş dastanları, əsatirlər, inamlar və s. mövcuddur. İnsanın əmələ gəlməsi, bəzi insanların anadan olarkən müəyyən nişanələrlə doğulması barədə qədim təsəvvürləri, törəyiş modelini və onun ayrı-ayrı ünsürlərini ümumiləşdirib aşağıdakı təsnifatı aparmaq olar:

a) Tanrının əmri ilə insanın yaranması; b) Yaradılış dastanlarında kainatla birgə əmələ gələn insanlar; c) Təbiətin müxtəlif canlı və cansız varlıqlarından törəyən insanlar.

Əlbəttə, bu bölgü müəyyən dərəcədə şərti səciyyə daşıyır və onun təsnifat prinsiplərinin əhatə dairəsini genişləndirmək olar. İnsanın yaranmasında tanrının, müəyyən hami-xilaskar qüvvələrin (əcdad kultunun), təbiətin bəzi ünsürlərinin rolunu nəzərdən keçirsək, bir sıra oxşar məqamların üst-üstə düşdüyünü, müəyyən süjet, obraz və motivlərin paralelliyini müşahidə etmək mümkündür. Fikrimizcə, bu ortaq dünyagörüşün təməlində əcdad anlayışı, ilk insanın mənşəyi barədə əski təsəvvürlər dayanır. Mifoloq A.Acalov bu məsələni şərh edərək yazır ki, "türk etnik-mədəni ənənəsi üçün soykök anlayışı, etnik mənşə çox önəmlidir. Bu xüsusiyyət ortaq mədəniyyətə sahib olan və Avrasiya bozqırlarında bütün xalqlar üçün səciyyəvidir (1, s.59).

Etnik mənşəyə xüsusi əhəmiyyət verən türk etnoslarının bu dünyagörüşü qədim dastanlarda mühafizə olunub qorunmuşdur. Yaradılış və törəyişin, xüsusilə törəyişin mühüm məqamlarını əks etdirən qədim yakut dastanı "Ər Soqotox"da ibtidai baxışların arxaik cizgiləri əks olunmuşdur. Dastanda Ər Soqotox (bu ad yakutca

yalqız, tənha adam anlamına gəlir – A.A.) çox nəhəng və güclü bir bahadır kimi təsvir olunur: "Boyu on geniş qarış, eni dörd geniş qarış, bir çiynindən o biri çiyninə qədər də beş qarış imiş. Qolları qurumuş qayın ağacı kimi, gözləri isə at qantarğasının halqaları kimi yupyumru imiş. Burnu da inəyin omba sümüyü qədər böyük imiş. O ki qaldı gücünə donmuş ağacları belə kökündən çıxartmaq onun üçün heç nə imiş" (4, s.119). Qeyd edək ki, ümumtürk dastan qəhrəmanları (Bilqamıs, Oğuz xan, Manas, "qara daşı kül eləyən Qaragünə", "altmış erkəc dərisindən kürk eləsə topuqlarını örtməyən" Aruz Qoca və b.) nəhəng bədəni və qeyri-adi gücü ilə Ər Soqotoxu xatırladırlar. Qədim türk bahadırlarının bu xüsusiyyəti sonrakı ümumtürk dastanlarında da, məsələn, "Koroğlu" eposunda da müşahidə edilir. Dastanın ilk qolunda Rövşən "ağacın budaqlarından yapışsa kökündən çıxardan", "öküzün buynuzlarından yapışsa dik qaldıran" azman bir pəhləvan kimi təqdim olunur.

Göründüyü kimi, ümumtürk dastan qəhrəmanlarının qeyri-adi zahiri cizgiləri və qüdrəti eposçuluq ənənəsində etnogenetik köklərin eyni mənbədən qaynaqlandığından soraq verir.

Ər Soqotox on doqquz yaşına çatanda necə doğulduğunu, ata-anasının kim olduğunu öyrənmək üçün Ağac xaqanın yanına gəlir. Ər Soqotoxun səsini eşidən Ana tanrı ağacın kökündən çıxaraq deyir: "Dinlə, ey uşaq! Sənin atan Ər Toyon, anan isə Kübey xatun idi. Səni doğan və dünyaya gətirən onlardı. Göyün üçüncü qatından bir əmr gəldi və bu əmrdə sənin böyüdülməyin və insanlara ata olmağın buyuruldu" (4, s. 121). Ana tanrı Ər Soqotoxa həyat suyu da verib onu müqəddəs bir vəzifə ilə şərəfləndirir. Uzun və çətin bir səfərdə Ər Soqotox cəhənnəm zəbanisi Buura-Dehsunu öldürərək Qara xanın ölkəsini xilas edir və onun kiçik qızı ilə evlənir. Göydən endikdən sonr onlardan törəyən uşaqlar yakut türklərinin əmələ gətirmiş və yer üzündə məskunlaşmışlar. Buradan bəlli olur ki, Ər Soqotoxun mənşəyi ilahi aləmlə bağlıdır. Ana tanrı ona kimliyini izah etdikdən sonra Ər Soqotox yer üzünü məskunlaşdıran insanları – yakut türklərini yaradır. Başqa sözlə, Ər Soqotox sakral mahiyyəti ilə Adəmi xatırladır. Adəm cənnətdə, Ər Soqotox göydə yaşayır. Bəlkə də, öz əməllərin görə Ər Soqotox Adəmdən yüksəkdə durur. Çünki Adəm etdiyi günah üçün yer üzünə qovulur və burada Həvva ilə birlikdə ilk insanları dünyaya gətirir. Ər Soqotox isə özü göydən yerə enmiş və yakutları meydana gətirmişdir. Bu baxımdan Ər Soqotox həm də müəyyən mənada mədəni qəhrəman funksiyasını yerinə yetirir. Törəyiş dastanlarının bir qismində tanrı müəyyən kult şəklinə (qurt, işıq və s.) düşərək insanın yaranması prosesində iştirak edir. Doqquz oğuzlara məxsus bəzi dastan və əfsanələrdə bu motivə sıx-sıx rast gəlinir. Həmin əfsanələrin birində doqquz oğuzların ulu əcdadı olan xaqanın iki gözəl qızından, tanrılara layiq bildiyi üçün bu qızları onun əlçatmaz bir yerdə tikdirdiyi sarayda saxlamasından bəhs edi-

lir. Xaqanın yalvarışlarını eşidən tanrı qurd görkəmində gələrək qızlarla evlənir. Bu izdivacdan onların doqquz oğuz və on uyğur uşaqları doğulur.

Digər bir uyğur dastanında doqquz oğuzların törəmələrinin Kumlanço adlı ölkədə yaşamaları nağıl olunur. Tuğla və Selenqa çaylarının arasında bitən şam və qayın ağacının üzərinə göydən işıq (altun yaruk) düşdükdən sonra ağaclardan birinin hamilə qalması və beş uşaq döğməsı qədim türklərin ağaca və işığa bəslədikləri müqəddəs inamın ifadəsidir. Maraqlıdır ki, bu törəyiş dastanında uşaqların doğulması birdən-birə deyil, bioloji prosesdə olduğu kimi müəyyən müddət ərzində baş verir: "Gün keçdikcə ağacların birinin qarnı şişdi. Doqquz ay on gün sonra ağacın qarnında bir qapı açıldı. İçəridə ağızlarında gümüş əmzik (bəzi variantlarda qızıl əmzik) olan beş uşaq göründü". Uşaqlar on beş yaşına çatanda onları böyüdən doqquz oğuzlardan ata-analarını soruşduqda həmin ağacları göstərirlər. "Sevgili ata-anamız" – deyə uşaqlar ağacları qucaqlayaraq onları əzizləyirlər. Burada ağac və işıq ana və ata (ağac ana, işıq ata) rolunda çıxış edirlər.

Bir qırğız əfsanəsində işığın suyu döllədirməsindən sonra Saqan xanın qızının otuz doqquz gözəllə hamilə qalmalarından bəhs olunur. Dan yeri ağaranda çayın kənarına gələn bu qızlar günəşin ilk şəfəqlərinin suda necə qərq olduğunu heyranlıqla seyr edir və əllərini suda yuyurlar. Bundan sonra hamısı hamilə qalır. Bu süjetdə işığın su ilə təması nəticəsində qızların hamilə qalmaları sakral qüvvənin nişanəsidir. "Əski türk xalqlarının inamlarına görə, müqəddəslərin olduqları yer bulaq, çay başları və sular imiş" (5, s.223). Bunları ümumiləşdirib buradan belə nəticəyə gəlmək olar ki, qızlar əllərini gün doğmamış suda yusaydılar, heç bir hamiləlik baş verməzdi. İşıq göydən enən sakral bir qüvvə kimi suyu mayalayır və qızlar hamilə qalırlar.

Borteçine soyundan olan Alanqovanın işıqdan hamilə qalması haqqındakı əfsanə də əhəmiyyətli səciyyə daşıyır. Əri Dubun öldükdən bir müddət sonra Alanqova bacadan nurlu bir kölgənin endiyini görür. O, qışqırmaq istəsə də dili tutulur. Alanqova həmin kölgədən hamilə qalır. Buna inanmaq istəməyən qohum-əqrəba növbə ilə keşik çəkib, doğrudan da nurlu bir kölgənin bacadan içəri girdiyinin və bir az sonra çıxıb getdiyinin şahidi olurlar.

Nəzərdən keçirdiyimiz dastan və əfsanə örnəklərində işıqla birgə ağac, qurd, su kultları da iştirak edirsə, bu əfsanədə tanrının nişanəsi kimi yalnız işığın rolu müşahidə olunur. Qeyd edək ki, bu əfsanə süjeti "Monqolların gizli tarixi" əsərində cüzi fərqlərlə əks olunmuşdur. Dubundan olan oğulları (Belgünötay, Bügünötay) Alanqovanın (Alanhoanın) barəsində şübhəyə düşdükdə o, bunun səbəbini onlara danışır: "Hər gecə sarışın bir adam evin (çadırın) bacasından sızan işıq vasitəsi ilə girərək qarnımı oxşayır və onun nuru bədənimə keçirdi. Çıxanda isə günəş (və ya) ayın şuaları üzərindən sarı bir köpək kimi sürünərək çıxırdı. Siz düşünmədən necə belə danışırsınız? Bu

hadisə üzərində fikir yürüdülsə, onların tanrı oğlu olduğu meydana çıxar. Qardaşlarınızı qarabaşlı (adi) insanlarla müqayisə edərək necə elə danışa bilirsiniz? Onlar bütün insanların xanı olduqları zaman sadə xalq həqiqəti anlayacaqdır" (3, s. 61).

Əfsanədə Alanqovanın Dubundan iki, tanrıdan isə üç oğlu olduğu nağıl edilir.

Göytürk dastanlarında qurd əcdad rolunda çıxış edir. "Oğuz xaqan" dastanında qurd xilaskarlıq (hami) missiyasını yerinə yetirir. Mütəxəssislərin fikrincə, qurd əski türklərdə günəşin bəlgəsi sayılmışdır. "Oğuz xaqan"da qarluq, qalac, qanqlı türk boylarının törəyişi "boz tüklü, boz yeləli erkək boz qurdun" himayəsi sayəsində baş verir. "Ərkənəqon" dastanında da qurdun xilaskar funksiyasında çıxış etdiyini görürük. Göytürklər sığındıqları kiçik ərazidən çıxmaq üçün qurdun nişan verdiyi keçidi genişləndirib xilas olurlar. Dəmirçi Burteçine əlinə qurd başı çəkilmiş bir bayraq alır və düşmənlərlə savaşaraq qələbə çalırlar.

Göytürklərin mənşəyi ilə bağlı bu günümüzə gəlib çatmış üç əfsanədə qurddan törəyiş motivi əsas yer tutur. Məzmunca bir-birinə yaxın olan iki əfsanədə Lin adli bir hökmdarın əsgərlərinin bütün göytürkləri öldürdükləri və on yaşlı cılız bir uşağa yazıqları gəldikləri üçün onun ayaqlarını kəsərək böyük bir bataqlıq içindəki otların arasına atdıqları nağıl edilir. Uşağın yanında peyda olan dişi bir qurd ona ət və yemək vermiş, birlikdə ər-arvad kimi yaşamağa başlamışdılar. Düşmənlər uşağın sağ qaldığını öyrəndikdə onu öldürməyə gəlirlər. Lakin qurd uşağı belinə alaraq qaçır. Çünki qurd müqəddəs ruhlarla əlaqəsi olduğundan düşmən əsgərlərinin gəlişindən xəbər tutmuşdu. Turfan dağında dərin bir mağaranın içindəki ovalığa sığınan oğlanla qurdun on uşağı olmuşdu. Vaxt ötdükcə böyüyən bu uşaqlar ətraf oymaqlardan on qız gətirib evləndilər. Bu evlilikdən on soy törəndi. Göytürklərin əcdadı sayılan Aşina boyu bunlardan biri idi. Qurdu müqəddəs və öz əcdadları saydıqları üçün göytürklərin bayraqlarında qurd başının təsviri var idi.

Qurddan törəyişlə əlaqədar üçüncü bir əfsanədə (hər üç əfsanə çin qaynaqlarında yazıya alınmışdır) qurd obrazı digər iki əfsanəyə nisbətən geniş yer tutmasa da, burada da göytürklərin ulu əcdadı qurddan doğulmuş bir uşaqdan, onun qeyri-adi gücə və bacarığa malik olmasından bəhs edilir. İ-ci Ni-su-tu adlı bu uşaq yağışın yağması və küləyin əsməsi barədə əmrlər verə bilirmiş. Onun iki arvadı var idi. Bu qadınlardan biri dörd oğlan doğmuşdu. Qardaşlardan böyüyü odu icad etdiyinə görə digər üç qardaş onu başçı seçdilər və ona Türk adını verdilər. Türkün on arvadı var idi. Bu qadınlardan doğulan oğlanların hamısı soyadlarını onların adlarından götürürdülər. Türk öləndə bütün qardaşlar bir ağacın altına yığışıb başçı seçmək qərarına gəldilər. Şərtə görə kim ən yüksəyə tullansa o, başçı olacaqdı. Türkün kiçik arvadından olan Aşinanın oğlu hamıdan yüksəyə tullandı və başçı seçildi.

Göründüyü kimi, hər üç əfsanədə qurd Göytürklərin ulu əcdadı hesab edilir.

Göytürk dövlətinin əsasını qoyan Aşina ailəsi də qurdun soyundan gəlmişdi. B.Ögəlin fikrincə, bu əfsanənin daha qədim tarixə malik olan birinci variantı çox geniş yayılmış və xalq nağılları ilə qarışıb dastan əmələ gətirmişdir.

İnsanın törəyişi ilə bağlı digər bir motiv yaradılış dastanlarında kainatın və insanın birgə yaranması motividir. Altay yaradılış dastanlarında kainatın və insanın yaranması prosesi ətraflı şəkildə təsvir olunmuşdur. Toplayıb yazıya aldıqları müəlliflərin adlarına görə Altay yaradılış dastanlarının iki variantı: V.Radlov və V.Verbitski variantları mövcuddur. Bunlardan V.Radlovun yazıya aldığı variant daha mükəmməl olduğu üçün onun üzərində dayanmağı məqsədəuyğun sayırıq.

Dastan yer, göy, ay və günəşin olmadığı, yalnız su ilə tanrı Kuday və bir insanın olması əhvalatı başlayır. İnsan tanrını aldadıb ağzında torpağı gizlətdiyinə görə tanrı onu öz yanından qovur və ona Erlik adını verir. Tanrı doqquz budaqlı ağacın kökündən doqquz insan yaradır. Bu insanlar bir ağacın meyvəsi ilə dolanır, ağacın digər tərəfindəki dörd budağın meyvəsinə isə toxunmurdular. Çünki tanrı onu qadağan etmişdi. Lakin Erlik Törüngey adlı adamı və arvadı Ejeni yollarından azdırır. Ər-arvad qadağan olunmuş meyvələri yediklərinə görə tanrı onları öz yanından qovur və Erlikin düşməni elan edir. Törüngey və Ejedən törəyən insanlar isə yer üzünü məskunlaşdırırlar. Dastanda təsvir edilən bu süjet səmavi kitablarda Allahın yaratdığı dünya və insan (Adəm və Həvva) hadisəsi ilə bir çox hallarda yaxından səsləşir.

Digər bir əfsanədə Ülgen və Erlik böyük tanrı Qara xanın oğulları kimi təsvir olunurlar. "Yaradılış" dastanında olduğu kimi, burada da dünyada sudan başqa heç nəyin olmadığı bir zamanda Qara xan ilk insanı yaradır, onun yaşaması üçün suyun dibindən bir ulduz çıxardır, bu ulduzdan bir ovuc torpaq götürüb suyun üzünə səpməyi əmr edir. İnsan tanrının əmrinə əməl edir, lakin təbiətən xəyanətkar olduğu üçün bu torpağın bir hissəsini ağzında gizlədir. Suyun üzünə səpilən torpaq böyüyərək adaya çevrilir, insanın ağzındakı torpaqdan isə dağlar meydana gəlir. Qara xan bundan sonra adada doqquz budaqlı bir şam ağacı əkib göyün on yeddinci qatında məskunlaşır, oğlu Ulgen on altıncı qatda, o biri oğlu Erlik isə yeraltı dünyada qərarlaşır. Belə nəticəyə gəlmək olar ki, Erlik yeraltı dünyada yaşadığına görə şəri təmsil edir. Çünki yeraltı dünya əksər xalqlarda olduğu kimi, türklərdə də şərin, iblis və şeytanların məskəni kimi simvollaşdırılmışdır.

"Yaradılış"ın Radlov variantında Erlik yaradıcı tanrı xüsusiyyətinə malikdir. Lakin onun yaratdıqları bu varlıqlardır:

Bir vurdu, ilan çıxıb qıvrılaraq qeyb oldu,
Bir vurdu, ay çıxdı, qaçıb toz-duman oldu.
Bir vurdu, donuz çıxdı, donuzların vəhşisi,
Bir vurdu, Albıs çıxdı, pis ruhların saçlısı (4, s.457).

Ümumiyyətlə, ümumtürk dastanlarında, əfsanə və rəvayətlərdə Erlik bəzən insanı, bir çox hallarda isə öz dünyası (yeraltı aləm) və hökmündə olan şər qüvvələri (cinlər, əcinnələr, pis ruhlar və s.) təmsil edir. V.Verbitski variantında ilk insan Erlik adlanır və onu yaradan tanrı Ülgenin təklifi ilə tanrının kiçik qardaşı olur. Lakin Erlik Ülgenə paxıllıq edərək ona qarşı çıxır.

Dünya daşqınından, tufandan sonra ikinci törəyişlə əlaqədar yaranmış dastanlarda da Erlik şərin rəmzi kimi xəyanət yolunu tutur. Daşqından sonra qardaşı Ülgenin yenidən insan yaratmaq istədiyini bilən Erlik Ülgenin qabın içinə qoyduğu çiçəyi oğurlayaraq ondan insan düzəldir. Bu insanlar dəridən bir davul düzəldir və ilk şaman mərasimini icra edirlər. Altay yaradılış dastanlarında Ülgen Erliklə daim mübarizədədir. Belə dastanların birində nağıl edilir ki, Ülgen ilk insanın ətini torpaqdan, sümüklərini isə daşdan yaratmış, ona ilk şəklini vermişdi. Qadını kişinin qabırğasından düzəltmiş, onlara göz qoymaq üçün tüksüz bir it yaratmışdı. Ülgen onlara ruh gətirmək üçün yola çıxanda Erlik itə tük verərək onu aldadır və öz ruhundan onların bədəninə üfürür. Ülgen geri qayıdanda qadınla kişinin canlandığını görüb onları özbaşına buraxmışdı. Elə o vaxtdan bir qurbağanın məsləhəti ilə Ülgen yaşayanı yaşadır, öləni isə öldürür.

Altaydakı qara orman tatarlarının dastanında Payana adlı tanrının düzəltdiyi insan heykəlinin keşiyini çəkən köpəyi şeytan aldadaraq heykəli başdan ayağa öz tüpürcəyi ilə bulayır. Ruh gətirmək üçün göyə uçan tanrı geri qayıdanda insanı bu vəziyyətdə görüb onu nə qədər təmizləməyə çalışsa da, istəyinə nail ola bilmədi. Ona görə də məcbur olub insanı tərsinə çevirdi. O vaxtdan insanın içi tüpürcəklə dolu qaldı. "İnsanın içi, ilanın üzü alabəzəkdir"- atalar sözündə şeytanın insanın içində gizləndiyi fikri metaforik deyimlə ifadə olunmuşdur. Digər tərəfdən ilanın insanla müqayisə edilməsi də, fikrimizcə, təsadüfi deyildir. V.Radlovun yazıya aldığı Altay yaradılış dastanında şeytanın sözünə aldanıb tanrının qadağan etdiyi meyvəni birinci yeyən ilan olur, yəni şeytana aldanan ilk məxluqlar ilanla insandır. Bu təşbehin təməlində qeyd olunan mifik təfəkkürün izləri qorunub saxlanmışdır. Ümumiyyətlə, bir çox ümumtürk törəyiş dastanlarında insanın yaranmasında Erlik də iştirak edir. Lakin o, insanı özünə bənzətmək istəmiş, onu düz yoldan sapdırmışdır. Ona görə də bir çox məqamlarda şeytanla insan eyni bir obrazın timsalında əks olunurlar.

Bəzi dastanlarda ilk insanın müxtəlif təbiət predmetlərindən: qardan, qartaldan, dolu dənəsindən və s. yarandığı əks olunmuşdur. Məsələn, bəzi yakut boyları qartalı ana hesab edir, müqəddəs varlıq kimi ona and içirdilər. Qədim bir Altay dastanında göydən düşən dolu dənəsini udan qızın hamilə qalması təsvir olunmuşdur. Göytürklərin "Aşina" dastanında olduğu kimi, burada da düşmənlər tərəfindən qırılıb məhv edilən bir xalqdan bəhs edilir. Sağ qalanlar içərisində bir qız təkbaşına

dolaşaraq günlərlə ac-susuz qalır. Nəhayət, göydən yağışla bərabər iki buz parçası düşür. Aclığını söndürmək üçün qız buz parçasını qırır və onun içindəki iki buğda dənəsini udur. Doqquz ay on gündən sonra onun iki oğlu olur. Qoçkar və Muz xan, yəni Buz xan adlı həmin uşaqlardan törəyənlər sonralar böyük nəsillərə çevrilirlər.

Müxtəlif əşyalardan törəmə süjeti dünya, eləcə də türk xalqlarının folklorunun ayrı-ayrı janrlarında da geniş yayılmışdır. "Qaraqaş" adlı Azərbaycan nağılında nağıl qəhrəmanı dərvişin tüpürcəyindən, "İlan oğlan" nağılında isə ağacın dibindən qoca odunçunun taptığı yumurtadan uşaq dünyaya gəlir. Onu da qeyd edək ki, həmin nağılda ağac əyəsi(yiyəsi) hami rolunda ilan oğlanı bir çox çətinliklərdən xilas edir. Yunan mifologiyasında Zevsin qızı Afina onun başından, oğlu Dionis Zevsin budundan doğulur. Hindlilər inəyi öz əcdadı hesab edir, onu heç vaxt kəsib ətini yemirlər.

Daşdan, küldən, sehrli muncuqdan və s. kimi əşyalardan doğulma motivi sakral mahiyyətini müxtəlif şəkillərdə mühafizə edir:

Əzizinəm başdan mən,
Qələmdən mən,qaşdan mən
Nə atam var, nə anam
Yaranmışam daşdan mən (2, s.188).

– bayatısında daşın əcdad rolunda çıxış etməsi mifik təfəkkürdən qaynaqlanan doğulma motivi kimi ilkin izlərini qoruyub saxlamışdır.

**Elmi yeniliyi:** Törəyiş dastanlarında ilk insanın yaranması barədə mifik obraz, süjet və motivlər araşdırılır.

**Tətbiqi əhəmiyyəti:** Azərbaycan şifahi xalq ədəbiyyatı və Ümumtürk dastanları fənlərinin müvafiq bölmələrində mənbə kimi istifadə oluna bilər.

## QAYNAQLAR

1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I cild, Bakı: Elm, 2004, 760 s.
2. Bayatılar (tərtib edən V.Vəliyev). Bakı: Yazıçı, 1985, 199 s.
3. Monqolların gizli tarixi (türkcə, rusca və almanca nəşrləri əsasında tərcümə edən və ön sözün müəllifi: R.Əskər). Bakı: "MBM", 2011, 360 s.
4. Ögəl B. Türk mifologiyası, I cild (tərcümə edən, ön söz və izahların müəllifi: R.Əskər). Bakı: "MBM", 2004, 626 s.
5. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.

*Daxilolma tarixi: İlkin variant 18.01.2021*
*Son variant 12.02.2021*